***İsa Şuşalı***

***Xocalı dəhşətin eşidəndə mən!***

Gör nələr törətdi, namərd əlləri,
Göynətdi, sızlatdı, bu dərd elləri!
Şeiriyyət bağımın soldu gülləri,
Xocalı dəhşətin eşidəndə mən!

Bayraqlar başını əydi torpağa.
Sevincim büküldü beş arşın ağa.
Əsəbim çəkildi sanki çarmıxa,
Xocalı dəhşətin eşidəndə mən!

Analar ah çəkib geyindi qara,
Yaramız üstündən vuruldu yara!
Döndü sinəm üstə zülmət məzara
Xocalı dəhşətin eşidəndə mən!

Elimin səsinə səs verdi ellər,
Qazdı şəhid qəbri birləşən əllər
Alnımdan süzülüb axdı soyuq tər
Xocalı dəhşətin eşidəndə mən!

Könlümə həqiqət dalğası doldu.
Üçgünlük matəmin ağrısı doldu!
Qan tökən şeirimin hədəfi oldu,
Xocalı dəhşətin eşidəndə mən!

Asiman hönkürdü, torpaq ağladı,
Qaralan yurd yeri, ocaq ağladı.
Təк man yox, dünya yox, daş, dağ ağladı
Xocalı dəhşətin eşidəndə mən!

Qəlblərdə yurd salıb ölməzləşiblər,
Dağ kimi ucalıb ölməzləşiblər,
Məni öz içimdə boğdu dərd-qəhər,
Xocalı dəhşətin eşidəndə mən!

Adı mənə əziz, elə əzizin,
Həddini aşanın qatlarıq dizin!
Dedim yerdə qalmaz qanınız sizin,
Xocalı dəhşətin eşidəndə mən,
Xocalı dəhşətin eşidəndə mən!

***Şuşalı İ. Xocalı dəhşətini eşidəndə mən! : şeir // Şuşalı İ. Unudulmaz abidədir bu kitab. – Bakı : Nurlan, 2009. – S.94-95.***